BANK XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ HAQQINDA ÜMUMİ MÜQAVİLƏYƏ
Elektron ticarət (e-commerce) sahəsində bank-ekvayrinq xidməti üzrə
Xüsusi Şərtlərə dair
25.08.2025 tarixli Əlavə
(bundan sonra – Əlavə)

**Bakı şəhəri**

Bundan sonra **"Bank"** adlanacaq, **"Kapital Bank" ASC** bir tərəfdən və bundan sonra **"Təchizatçı"** adlanacaq, **KALBALIEV ALTUN** digər tərəfdən (bu Müqavilənin mətni boyunca ismin müvafiq halında "Bank" və "Təchizatçı" ayrı-ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırıla bilərlər) aşağıdakılar barədə bu Əlavəni imzaladılar:

**1.** Hazırkı Əlavə Bank və Təchizatçı arasında ən son tarixdə bağlanmış **Bank Xidmətlərinin Göstərilməsi Haqqında Ümumi Müqavilənin** (bundan sonra **"Müqavilə"** adlanacaq) ayrılmaz tərkib hissəsi hesab olunur.

**2.** Bank aşağıdakı xüsusi şərtlərlə Təchizatçının İnternet şəbəkəsində Təchizatçıya məxsus İnternet-mağazada malların alqı-satqısı/xidmətlərin göstərilməsi/işlərin görülməsinə görə ödənişlərin kartlar vasitəsilə həyata keçirilməsinə dair hesablaşmaları təşkil edir, Təchizatçı isə bunun müqabilində əməliyyatların aparılması ilə bağlı Müqavilə və onun ayrılmaz tərkib hissə olan bu Əlavə üzrə müəyyən olunan bank xidmətlərinin haqqını Banka ödəyir:

| | | |
|---|---|---|
| **2.1** | Bank komissiyası (əməliyyat məbləğinə (vergilər və digər ödəmələr də daxil olmaqla) nisbətdə, %-lə): | Bankın kartları və/və ya Banka ona məxsus daxili prosessinq sistemində xidmət olunan bankların kartları ilə aparılmış hər əməliyyata görə (taksit əməliyyatları istisna olmaqla) – **1.5 %** ("On-us" əməliyyatı) |
| | | Yerli banklar və/və ya digər prosessinq sistəmlərində xidmət olunan yerli banklara maxsus kartlar vasitəsilə aparılmış hər bir əməliyyata görə **2.5 %** ("Domestic" əməliyyatı) |
| | | Xarici banklar və/və ya digər prosessinq sistemlərində xidmət olunan banklara məxsus kartlar vasitəsilə aparılmış hər bir əməliyyata görə– **3 %** ("Foreign" əməliyyatı) |
| **2.2.** | Komissiya haqlarının tutulma qaydası: | Bank hər bir əməliyyat üzrə özünün komissiya haqqını Təchizatçının hesabına köçürməli olduğu məbləğdən Təchizatçının əlavə razılığı olmadan akseptsiz qaydada tutur |
| **2.3.** | Taksitli ödəniş layihəsinə qoşulma | Hə |

| | | |
|---|---|---|
| **2.4.** | Bu Müqavilə və onun ayrılmaz tərkib hissə olan bu Əlavənin icrası ilə bağlı Tərəflər arasında aparılan yazışmalar bu elektron poçt ünvanları vasitəsilə həyata keçiriləcəkdir: | Banka aid elektron poçt: psid@kapitalbank.az<br>Təchizatçıya aid elektron poçt: altunkalbaliev@gmail.com |

**2.5**

Digər şərtlər:
1) E-Ticarət xidmətinə qoşulacaq Veb səhifənin adı (URL), E-Ticarət vasitəsilə edilmiş ödənişlər üzrə Təchizatçının Bankda açılmış cari bank hesabı (bundan sonra – hesab), Təchizatçının fəaliyyət sahəsi aşağıdakı cədvələ əsasən müəyyən olunur:

| Veb səhifənin adı (URL) | Hesab nömrəsi | Fəaliyyət sahəsi |
|---|---|---|
| https://uniexp.az | AZ83AIIB410450I9441347563255 | Geyim mağazası |

2) Bankın Loyallıq faizini nəzərdə tutan bankın kartları ilə aparılmış hər birdəfəlik ödəniş əməliyyatına görə Təchizatçıdan tutularaq Kart istifadəçisinin hesabına geri ödənilən loyallıq faizi nəzərdə tutulmayıb.
3) Bu Müqavilə və onun ayrılmaz tərkib hissə olan bu Əlavənin icrası ilə bağlı Tərəflər arasında aparılan yazışmalar bu Əlavənin 3-cü bəndi ilə nəzərdə tutulmuş elektron poçt ünvanları vasitəsilə həyata keçiriləcəkdir:
4) Bu Əlavə imzalandığı tarixdən etibarən qüvvəyə minir. Bu Müqaviləyə aşağıdakı hallarda xitam verilir:
- Tərəflərdən hər hansı biri müqavilə üzrə öhdəliklərini kobud şəkildə pozduğu təqdirdə;
- Müqavilə üzrə nəzərdə tutulmuş əməliyyatların monitorinqi bölməsi ilə nəzərdə tutulmuş monitorinqlər nəticəsində Bank Müqaviləyə xitam vermək qərarına gəldikdə;
- Tərəflərin hər hansı birinin digər tərəfə müraciəti əsasında.
5) Xidmət üzrə Əlavəyə (habelə Müqavilənin müvafiq hissəsinə) vaxtından əvvəl xitam verilməsi halında Bank Əlavəyə (Müqavilənin müvafiq hissəsinə) xitam verilməsinə dair bildirişi aldığı andan etibarən ödənişlərin icrası və avtorizasiyası üzrə əməliyyatların aparılmasını dayandırır.
6) Bu Əlavəyə (habelə Müqavilənin müvafiq hissəsinə) xitam verilməsi halında Tərəflər Müqavilə üzrə bütün qarşılıqlı hesablaşmaları və ödənişləri bu Müqavilənin 12.3.2.8-ci yarımbəndinin tələbləri nəzərə alınmaqla, Əlavəyə (habelə Müqavilənin müvafiq hissəsinə) xitam verilməsi anından 30 (otuz) gün ərzində yerinə yetirməlidirlər.
7) Tərəflərdən hər hansı birinin üçüncü şəxslərdən asılı olan hallar səbəbindən bu Əlavənin (habelə Müqavilənin müvafiq hissəsinin) şərtlərinin yerinə yetirilməsi mümkün olmadıqda, həmin tərəf 5 (beş) iş günü müddətində digər tərəfə bu halların baş verməsi barədə məlumat verməlidir. Tərəflər sözügedən bildirişin alınması anından 5 (beş) iş günündən gec olmayaraq Əlavəyə (Müqavilənin müvafiq hissəsinə) xitam verilməsinə və ya əməkdaşlığı fərqli şərtlərlə davam etdirilməsinə dair razılaşmanı bağlamaq öhdəliyini üzərlərinə götürürlər.
8) Bu Əlavədən irəli gələn münasibətlərdə Təchizatçının ünvanı/hüquqi ünvanı kimi onun Müqavilədə qeyd edilmiş hüquqi ünvanı çıxış edir və bu ünvan dəyişdikdə Müştəri tərəfindən Banka məlumat verilməlidir. Bu məlumat Bank rəsmi yazılı qaydada (və ya bu cür məlumat mübadiləsi üçün Tərəflərin razılaşdırdığı digər üsulla), Bank təqdim edilənədək, Bank təqdim edilmiş ünvanı Təchizatçının hüquqi ünvanı hesab etməkdə haqlıdır və bütün məsuliyyət bu halda Təchizatçının üzərindədir.
9) Təchizatçı "Taksitli ödəniş" layihəsinə qoşulduğu təqdirdə, Təchizatçıdan bu layihə üzrə tutulan komisyon haqları aşağıdakı cədvələ əsasən müəyyən olunacaqdır:

| Opsiyalar | Komissiya haqqı |
|---|---|
| ***2 ay*** | ***4%*** |
| ***3 ay*** | ***5%*** |
| ***12 ay*** | ***15%*** |
| ***18 ay*** | ***20%*** |
| ***6 ay*** | ***9%*** |
| ***9 ay*** | ***12%*** |

| 4. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ: | |
|---|---|
| **4.1. Bank:** | **4.2. Təchizatçı:** |
| **“Kapital Bank” ASC**<br>**Ünvan:** Bakı şəh, Füzuli küç., 71<br>**Kod:** 200004<br>**VÖEN:** 9900003611<br>**M/H:** AZ37NABZ01350100000000001944<br>**SWIFT:** AİİBAZXX | **KALBALIEV ALTUN**<br>**VÖEN:** 1806773592<br>**Elektron ünvan:** altunkalbaliev@gmail.com |